**UOT 94(479.24)**

# BOLŞEVİK RUSİYASININ CƏNUBİ QAFQAZLA BAĞLI İŞĞALÇILIQ PLANLARINDA AZƏRBAYCAN

***Ənvər Fəttah oğlu Məmmədov***
***AMEA-nın A.A.Bakıxanov ad. Tarix İnstitutu***
***aliyevai@rambler.ru***

**Açar sözlər:** *Azərbaycan, bolşevik Rusiyası, Qızıl ordu, işğalçılıq planları, sol qüvvələr, hökumət.*

*Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanımayan bolşevik Rusiyası gərgin daxili siyasi vəziyyət, davam edən vətəndaş müharibəsi səbəbindən 1920-ci ilin aprelinə kimi Azərbaycana münasibətdəki məkrli niyyətini həyata keçirə bilməmişdi. Azərbaycan hökumətinin tərəflər arasında diplomatik münasibətlərin qurulması ilə bağlı etdiyi müraciətləri cavabsız qoyan Rusiya tərəfindən bu müddətdə Azərbaycanla bağlı müxtəlif mübhəm planlar hazırlanmış, onların gerçəkləşdirilməsinə çalışılmışdır. Təqdim olunan məqalədə ilkin qaynaqlar və tarixi ədəbiyyat materialları əsasında bolşevik Rusiyasının Azərbaycanla bağlı işğalçılıq planları araşdırılmışdır.*

## АЗЕРБАЙДЖАН В ЗАХВАТНИЧЕСКИХ ПЛАНАХ БОЛЬШЕВИСТСКОЙ РОССИИ ПО ОККУПАЦИИ ЮЖНОГО КАВКАЗА

***Анвар Мамедов***

**Ключевые слова:** *Азербайджан, большевистская Россия, Красная армия, планы оккупации, левые силы, правительство*

*Большевистская Россия, не признававшая независимость Азербайджанской Демократической Республики, ввиду собственного сложного внутриполитического положения и продолжавшейся гражданской войны, до апреля 1920 г. не могла претворить в жизнь свои захватнические планы по отношению Азербайджана. Оставляя без ответа обращения азербайджанского правительства об установлении дипломатических отношений между сторонами, Россия в этот период строила различные планы, связанные с Азербайджаном, и пыталась претворить их в жизнь. В представленной статье на основе*

*первоисточников и исторической литературы исследуются захватнические планы большевистской России по отношению к Азербайджану.*

## AZERBAIJAN IN THE AGGRESSIVE PLANS OF BOLSHEVIK RUSSIA FOR THE OCCUPATION OF THE SOUTH CAUCASUS

***Anvar Mammadov***

**Key words:** *Azerbaijan, Bolshevik Russia, the Red Army, occupation plans, left forces, government*

*Bolshevik Russia, which did not recognize the independence of the Azerbaijan Democratic Republic, in view of its own difficult domestic political situation and the ongoing civil war, until April 1920 could not implement its aggressive plans for Azerbaijan. Leaving unanswered the appeals of the Azerbaijani government to establish diplomatic relations between the parties, Russia during this period made various plans related to Azerbaijan and tried to put them into practice. In the presented article, on the basis of primary sources and historical literature, the aggressive plans of Bolshevik Russia in relation to Azerbaijan are explored.*

Azərbaycanın itirilməsini ağır iqtisadi hal kimi qəbul edən bolşevik Rusiyası üçün Bakını geri qaytarmaq iqtisadi blokada şəraitində həyati əhəmiyyətli məsələyə çevrilmişdi. Sonrakı illərdə bu istiqamətdə atılan addımlar da bunu deməyə əsas verir. Rusiya bu yolda istənilən itki və qurbanlara getməyə hazır idi. Hələ 1918-ci ildə bolşevik Rusiyası bu məqsədlə Almaniya ilə gizli danışıqlar aparmışdı. Tərəflər arasında əldə olunmuş razılaşmaya görə Almaniya müttəfiqi Osmanlı Türkiyəsinə Şərqi Zaqafqaziyanın Rusiyaya qaytarılması məqsədi ilə təzyiq göstərməli idi. Əvəzində isə Rusiya Bakıdan əldə olunacaq neftin dörddə birini Almaniyaya verməyi öhdəsinə götürürdü [7, 193]. Bu barədə tərəflər arasında gizli protokol imzalansa da, Almaniyanın müharibədə məğlub olması həmin razılaşmanın kağız üzərində qalmasına səbəb olmuşdu.

Gərgin daxili siyasi vəziyyət, davam edən vətəndaş müharibəsi Rusiyaya 1918-1919-cu illərdə Azərbaycana münasibətdəki məkrli niyyətini həyata keçirməyə imkan vermirdi. Həmin vaxtlar Rusiya Azərbaycan hökumətinin tərəflər arasında diplomatik münasibətlərin qurulması ilə bağlı müraciətlərini cavabsız qoymaqla yeni respublikanın müstəqilliyini tanımaqdan israrla imtina

edirdi. 1920-ci ilin əvvəlindən Rusiyada siyasi vəziyyətin bolşeviklərin xeyrinə dəyişməsi onların çoxdan gözlədiyi Azərbaycana təcavüz planını gündəmə gətirir. Bu planın həyata keçirilməsi yolunda ilk addım kimi Rusiya Azərbaycan tərəfinə Denikinə qarşı birgə mübarizə aparmağı təklif edir. 1920-ci ilin yanvarın 2-də Rusiya xarici işlər naziri Çiçerin Azərbaycana Denikinə qarşı mübarizədə Rusiya ilə hərbi əməkdaşlıqla bağlı müraciət edir. Çiçerinin Azərbaycana etdiyi hərbi əməkdaşlıq təklifini Tadeuş Svyatoxovski "Azərbaycana qarşı aparılan psixoloji müharibənin yaylım atəşi" adlandırmışdı [7, 195].

Əslində sovet Rusiyası bu təklifin arxasında Azərbaycanı Denikinlə müharibəyə sövq etməklə, ona qarşı məkrli niyyətlərinin reallaşdırılması üçün münbit şəraitin yaradılması məqsədi güdürdü. Təbii ki, bunu gözəl anlayan Azərbaycan hökumətinin başçısı Republikamızın digər dövlətlərin daxili işlərinə qarışmaq niyyətində olmadığını bildirməklə, Çiçerinin hərbi əməkdaşlıq təklifini diplomatik şəkildə rədd edir. Rusiya xarici işlər nazirinin Azərbaycanı Denikinlə hərbi qarşıdurmaya cəlb etmək məqsədilə sonrakı aylarda etdiyi cəhdlər də bir nəticə verməmişdi.

Rusiya Azərbaycana qarşı diplomatik təzyiqləri gücləndirməklə yanaşı, daxildə də pozuculuq fəaliyyəti aparır, mövcud hakimiyyətə qarşı müxalifətdə olan Rusiya Kommunist (bolşeviklər) Partiyasının Bakı təşkilatı, Hümmət və Ədalət kimi sol qüvvələrlə əməkdaşlıq edirdi. Azərbaycandakı sol qüvvələrin pərakəndə fəaliyyəti artıq həmin vaxt üçün respublikamızda zorakı yolla hakimiyyəti devirməyi qarşısına məqsəd qoyan Rusiyanın maraqlarına uyğun gəlmirdi. Hələ 1919-cu ilin payızından etibarən bu partiyaların vahid təşkilatda birləşdirilməsi istiqamətində iş aparan Rusiya 1920-ci ilin fevralında bu onların təsis qurultayının keçirilməsinə nail olur. Qurultayın yekun qətnaməsində Azərbaycan Kommunist Partiyası Ümumqafqaz qırmızı kommunist təşkilatının bir hissəsi, Qafqaz Qırmızı Komitəsi isə onun rəhbər orqanı elan olunurdu. Bu orqan Rusiya kommunist təşkilatı tərəfindən hər cür himayə olunur, onun ehtiyacları üçün kifayət qədər vəsait ayrılırdı. Qeyd edək ki, 1920-ci ilin əvvəlində Rusiya Kommunist (bolşeviklər) Partiyası Azərbaycan kommunist təşkilatının ehtiyacları üçün 50 milyon rubl pul ayırmışdı. Bundan əlavə, Bakıya Rusiyanın müxtəlif bölgələrindən silah sursat göndərilirdi. Təkcə Türküstan İnqilab Komitəsinin bu məqsədlə 1200 tüfəng ayırması faktı [7, 197] Rusiyanın Azərbaycandakı hakimiyyəti zorla devirmək niyyətini bir daha təsdiq edir.

Azərbaycan Kommunist Partiyasının birinci qurultayından sonra başlanmış silahlı üsyan hazırlıqlarına rəhbərlik etmək üçün M.D.Hüseynovun rəhbərliyi ilə 7 nəfərdən ibarət inqilabi qərargah yaradılır. Hər yerdə hərbi dəstələr və drujinaların təşkilinə başlanılır [1, 23].

Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətini heç bir zaman tanımamışdı. Bolşeviklər xalqların öz müqəddəratlarını təyin etmə

məsələsinə ikili mövqedən yanaşırdılar. Onlar bir tərəfdən hər bir millətin müstəqil dövlət yaratmaq hüququnu tanıdıqlarını bəyan etsələr də, digər tərəfdən bolşevikləri "millətlərin öz hüquqları haqqında məsələdə... hər şeydən əvvəl və daha çox millətin daxilində proletariatın öz müqəddəratını təyin etməsi" maraqlandırırdı [4, 292]. Oktyabr çevrilişindən sonra sovet Rusiyası rəhbərliyi öz müqəddəratını təyin etmə prinsipinin özünü deyil, orada ehtiva olunan və digər dövlətlərin daxili işlərinə qarışmaq imkanını verən onun özünəməxsus təfsirini dəstəkləyirdi [14, 17].

Azərbaycan xalqının şüurunda müstəqillik ideyasının kifayət qədər kök saldığını nəzərə alan bolşevik strateqləri taktiki gediş olaraq "müstəqil Sovet Azərbaycanı" şüarını irəli sürmüşdülər [11, 278-291]. 1919-cu ilin iyunun əvvəllərində o zamankı Rusiya Kommunist (bolşeviklər) Partiyası Bakı Komitəsinin faktiki başçısı olan A.Mikoyan bu haqda mərkəzə yazırdı: "...müsəlman kütlələrinin etimadını qazanmaq, milli əngəlləri aradan qaldırmaq üçün, inqilabi hərəkatın müvəffəqiyyətliliyi məqsədilə Bakı təşkilatı müstəqil Sovet Azərbaycanı şüarını tanımışdır. Bu şüar olduqca populyardır və bütün müsəlman zəhmətkeşlərini birləşdirməyə qadirdir". Bu şüarın 1919-1920-ci illərin mürəkkəb siyasi şəraitində Azərbaycanda bolşevik çevrilişi üçün münbit sosial zəmin yaratmaq məqsədi ilə taktiki cəhətdən ortaya atılmasını Azərbaycanın sovetləşmədən sonrakı taleyi də sübut edirdi. XI Ordu Azərbaycana təcavüz etdiyi gün İ.V.Stalin məktubunda etiraf edirdi ki, "Gələcək müstəqillik (Bakı tutulandan sonra) haqqındakı söhbətlər yoldaş Orconikidzenin konstruksiyasında yəqin ki, Bakını tutmaq faktını Azərbaycanın müstəqilliyi haqqında notalarla əlaqələndirmək (müvəffəqiyyətsiz) cəhdləridir. Mənə elə gəlir ki, gələcək (güman edilən) müstəqillik ciddi əməli əhəmiyyəti olmayan bir bəyannamədir" [5, 11]. Bir il əvvəl müstəqillikdən dəm vuran A. Mikoyan da sözügedən tezisin partiyanın müvəqqəti taktiki bir şüarı olduğunu, sovet hakimiyyətinin qələbəsindən sonra öz əhəmiyyətini itirdiyini sovetləşmənin dərhal ardından mətbuatda bəyan etmişdi [3, 7].

1920-ci ilin baharında Şimali Qafqazın Qızıl Ordu tərəfindən denikinçilərdən təmizlənməsi sovet rəhbərliyinə Azərbaycanla bağlı gizli niyyətlərinin gerçəkləşməsi ilə məşğul olmaq imkanı verdi. V.İ.Leninin 1920-ci ilin martın 17-də Qafqaz cəbhəsi Hərbi-İnqilab Şurasının üzvləri Smilqa və Orconikidzeyə göndərdiyi və Bakının alınmasını israr edən teleqramı Azərbaycanın müstəqilliyinə son qoyulması haqqında qərarın qəbulundan xəbər verirdi. Lenin bu məktubunda yazırdı: "Bakını tutmaq bizim üçün son dərəcə vacibdir. Bütün səylərinizi buna yönəldin..." [15, 11].

Bu arada qeyd edək ki, bolşeviklər kimi Rusiyanın keçmiş sərhədlərini bərpa etmək niyyətində olan denikinçilərin də Qafqaz, o cümlədən də Azərbaycanla bağlı xüsusi planları var idi. Rusiyanın cənubundakı hərbi qüvvələrin baş komandanı general Denikinin Azərbaycanla bağlı belə planları

barədə ağqvardiyaçı polkovnikin yaddaş kitabçasında qeyd olunur: "Rusiyanın başlanan yüksəlişi prosesində Zaqafqaziya, xüsusilə Bakı və onun rayonları məsələsinə, Bakının Rusiyanın tərkibinə qaytarılması tədbirlərinə əlahiddə yer verilməlidir. Bunun üçün yerlərdə rus əhalini təşkilatlandırmaq və birləşdirmək lazımdır; yerli əhalidən istənilən şəraitdə rus hakimiyyətini müdafiə etməyə hazır olanlar da bu işə cəlb edilməlidir. Rus qaçqınlarının əvvəlki yaşayış yerlərinə qaytarılması üçün təxirəsalınmaz tədbirlər görülməli, rus elementinin Bakı rayonuna axını gücləndirilməlir. Don, Kuban və Terek vilayətlərindən kazakların köçürülməsi yolu ilə ayrı-ayrı quberniyalarda koloniyalar salmaq, rus hakimiyyətinə qarşı üsyan etmiş müsəlman əhalinin Sibirə və yaxud İran, Türküstan və Xəzər arxası vilayətlərə sürgün olunması yolu ilə quberniyaları sistemli şəkildə müsəlmanlardan təmizləmək lazımdır. Bakının Rusiyadan müvəqqəti ayrılmasının səbəbkarları vətən xaini kimi mühakimə olunmaları üçün könüllü orduya verilməlidir. Yerlərdə rus idarəçiliyi nümunəsində idarə orqanları təşkil etmək və onları Bakıdakı rus qoşunlarının komandanına tabe etmək lazımdır" [8, 18-19].

Azərbaycanın sovetləşməsi üzrə işlər iki istiqamətdə aparılırdı. Bir tərəfdən Rusiyanın nüfuz agentləri vasitəsi ilə daxili-siyasi durum gərginləşdirilirdi. Bura hökumət böhranlarını təşviq etmək, Qarabağda erməni qiyamını qızışdırmaq və i.a. tədbirlər daxil idi. Yeri gəlmişkən qeyd edək ki, Qarabağ bölgəsində iğtişaşlar törədən ermənilər, bolşeviklərlə olduğu kimi, denikinçilərlə də gizli əlaqələrdə idilər. Qarabağdakı erməni dəstə başçısı Bakıdakı rus könüllü dəstə komandirinə yazdığı 1919-cu il 7 fevral tarixli məktubunda ruslardan yardım istəyirdi [9, 14].

Yerli kommunist təşkilatı dövlət çevrilişi və hərbi müdaxiləyə hazırlıq məqsədilə konsolidasiya olunur, silahlı dəstələr yaradılırdı. 1920-ci ilin martın sonlarında Azərbaycan kommunist təşkilatları Həştərxan Hərbi-İnqilab Komitəsinin sədri S.M.Kirova məktubunda ölkədə 30-40 min bolşevik yaraqlısının olmasından xəbər verirdi [13, 243]. Dövlətin müxtəlif, ilk növbədə də güc strukturlarında demoralizasiya xarakterli təxribat işləri aparılır, xalqı yanıltmaq, çaşqınlığı gücləndirmək məqsədilə çeşidli şayiələr yayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ingilispərəst, sovet Rusiyasının isə qərb imperializminin əsarəti altında inləyən şərq xalqlarının dostu obrazı formalaşdırılırdı.

Bolşevik Rusiyası müstəqil respublikamızın suverenliyinə təcavüz etmək niyyətini gerçəkləşdirmək üçün bütün yollardan istifadə edirdi. Bolşevik Rusiyasının düşmən mövqeyini görən Azərbaycan hökuməti hər vasitə ilə müstəqilliyini qorumaq üçün tədbirlər görmüşdü. Özünün işğal planlarını həyata keçirməyə çalışan Rusiyanın, bu zaman, buradakı ruslardan da istifadə edəcəyini anlayan Azərbaycan hökuməti tərəfindən hələ 1919-cu il yanvarın 5-də verilmiş xüsusi qərarında Azərbaycan ordusunda olan rus zabitlərinin tərxis

olunaraq onların türklərlə əvəz olunması və rus zabitlərinin siyasi cəhətdən etibarsız ünsür kimi yeddi gün ərzində ölkə ərazisindən çıxarılması nəzərdə tutulmuşdu [10, 12-12 arxa]. Lakin həmin ilin mayın əvvəllərində Azərbaycan hökumətinin başçısı hərbi nazirə yazdığı məktubunda bu tədbirə tərəfdar olduğunu bildirsə də, yaranmış siyasi şərtlər səbəbindən Azərbaycan ordusundakı rus zabitlərinin türklərlə əvəzlənməsi və tərxis olunmuş rus zabitlərinin ölkə ərazisindən çıxarılması tədbirini, müvəqqəti olaraq, təxirə salmağın zəruriliyini bildirirdi [10, 5-6].

Digər tərəfdən Azərbaycana təcavüz edəcək Qızıl Ordu komandanlığı əməliyyat planlarını tərtib etməklə, sərhədə hərbi hissələr cəmləşdirməklə məşğul idi. Artıq martın 28-dən sovet silahlı qüvvələrinin baş komandanı Bakı əməliyyatına hazırlıq işlərinə başladı. Aprel ayının ortalarında Azərbaycanın şimal sərhədində Qızıl Ordunun xeyli hissəsi toplaşmışdı [6, 374-375].

Aprelin 21-də Qafqaz cəbhəsi komandanlığı (Tuxaçevski, Orconikidze, Zaxarov) 490 saylı direktivlə XI Orduya aprelin 27-də Azərbaycan sərhəddini keçərək, Bakı quberniyasını ələ keçirmək əmrini verdi. İki gün sonra bu direktivə düzəliş edildi: ordunun son vəzifəsi kimi tək Bakı quberniyası deyil, bütünlükdə Azərbaycanın ələ keçirilməsi hesab olunurdu [12, 19].

Aprelin 22-də Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı Bürosunun müşavirəsində aprelin 27-də Musavat hökumətinə ultimatum verilməsi və silahlı üsyana başlamaq haqqında qərar qəbul olundu [2, 238]. Aprelin 24-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi və Bakı komitələri bütün partiya təşkilatlarının hərbi vəziyyət rejimində olduğunu elan etdi. Aprelin 26-da Bakı Bürosu Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin iclasında bir daha silahlı üsyan yolu ilə hakimiyyətin ələ keçirilməsi planı nəzərdən keçirildi və Müvəqqəti Azərbaycan İnqilab Komitəsi təşkil edildi [1, 26-27].

Nəhayət, bütün hazırlıq işləri tamamlandıqdan sonra, aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyətinə qarşı daxili və xarici qüvvələrin əvvəlcədən düşünülmüş qəsd ssenarisi işə salındı. Sovet Rusiyasının hərbi təcavüzü, yerli kommunistlərin destruktiv tərz-xətti ilə barabər Azərbaycan silahlı qüvvələrinin Qarabağda döyüşlər apardığı bir şəraitdə “Birinci respublikanın” süqutunu bilavasitə gerçəkləşdirən faktor idi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin keçmiş sədri Əhməd bəy Ağayev tərəfindən dünya xalqları və hökumətlərinə ünvanlanmış etiraz müraciətində göstərilirdi ki, hələ aprelin əvvəllərində Azərbaycanın şimal sərhədlərində rus ordu hissələrinin cəmləşməsi müşahidə olunan zaman, respublikanın xarici işlər naziri sovet Rusiyasının xarişi işlər üzrə komissarına radio ilə sorğu göndərsə də, heç bir cavab almamışdı.

Aprelin 27-ə keçən gecə isə rus qızıl ordu hissələri Azərbaycan milli ordusunun əsas qüvvələrinin həmin vaxtı ermənilərin Qarabağda baş verən

üsyanının yatırılmasına cəlb olunmasından istifadə edərək, heç bir əsas olmadan və xəbərdarlıq etmədən, müstəqil Azərbaycanın sərhəddini keçir. Bu zaman sərhəddə tərəflər arasında hər iki tərəfdən itkilərlə müşayiət olunan toqquşmalar olsa da, Azərbaycan hissələri sayca az olması səbəbindən, geri çəkilmək məcburiyyətində qalmışdılar [16]. Aprelin 27-də axşama doğru XI Ordu hissələri Biləcəri stansiyasına çatmış, Bakıya isə aprelin 30-da daxil olmuşdu [13, 254-256].

Hərbi müdaxilənin başlandığı gün səhər tezdən paytaxtda da bolşevik yaraqlıları mühüm strateji obyektləri ələ keçirməkdə idilər. Hakimiyyət orqanlarının tam iflic vəziyyətdə olduğu bir şəraitdə aprelin 27-də günorta iqtidarın N.Nərimanovun başçılıq etdiyi Azərbaycan İnqilab Komitəsinə verilməsini tələb edən ultimatum təqdim etmiş və məlum olduğu kimi, parlament aprelin 28-nə keçən gecə bu ultimatumu qəbul etmək məcburiyyətində qalmışdı. Beləliklə, Azərbaycan tarixində yeni-sovet dönəmi başladı. Aprelin sonu-mayın əvvəllərində azsaylı yerli bolşevik fəalların və Qızıl Ordu hissələrin birgə fəaliyyəti ilə Naxçıvan diyarı istisna olmaqla (bu bölgə sovet sferasına iyulun 28-də daxil oldu-Ə.M.) Azərbaycanın bütün ərazisində demək olar müqavimətsiz sovet hakimiyyəti bərqərar oldu.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

1. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), iş 4417
2. Azərbaycan tarixi. Üç cilddə. III cild. I hissə. Bakı, Elm, 1973
3. Qəndilov S.T. 20-ci illərdə Sovet Azərbaycanında partiya həyatının bəzi məsələləri// Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri. Bakı, Bakı Universiteti nəşriyyatı, s. 3-17
4. Lenin V.İ. Əsərlərinin tam külliyyatı. Rusca beşinci nəşrindən tərcümə. C.25 (mart-iyul 1914). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1981
5. Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı, Azərnəşr, 1995

*Rus dilində*

6. Азербайджанская Демократическая Республика (1918-1920). Армия (Документы и материалы). Баку, Азербайджан, 1998
7. Волхонский М.А., Муханов В.М. По следам Азербайджанской Демократической Республики. Москва, издательство «Европа», 2007
8. Государственный Архив Российской Федерации (ГАРФ), ф. 446, оп. 2, дело 41
9. ГАРФ, ф. 446, оп. 2, дело 42

10. ГАРФ, ф. 5297, оп. 1, дело 1
11. Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление Ленинской национальной политики в Азербайджане. Баку, 1970
12. Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы (1920-1921). Баку, Азернешр, 1989
13. Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье. М., Военное изд.-тво, 1960
14. Мустафазаде Р.С. Две республики: Азербайджано-российские отношения в 1918-1922 гг. М., МИК, 2006
15. Оккупация и фактическая аннекция Грузии. Тбилиси, изд-тво Сакартвело, 1990
16. Протест Агаева. // газета «Грузия», 16-го июнья 1920 года, №61